## ABŞ-ın MƏHKƏMƏ SİSTEMİ

**R.S.KAZIMOV**
***Bakı Dövlət Universiteti***

ABŞ-da vahid federal məhkəmə sistemi və 50 ştatın, Kolumbiya dairəsinin və 4 federal ərazinin müstəqil məhkəmə sistemləri paralel şəkildə fəaliyyət göstərir. Federal məhkəmələrin səlahiyyətlərinə hər şeydən əvvəl, federal qanunvericiliklə nəzərdə tutulmuş cinayətlər üzrə cinayət işlərinə və federal hakimiyyət orqanlarına qarşı iddialara və federal qanunların tətbiqi ilə bağlı ortaya çıxan mübahisələrə və ya müxtəlif ölkələrdə yaşayan vətəndaşlar arasında yaranan və iddia məbləği 10.000 dollardan artıq olan mübahisələr üzrə mülki işlərə baxılması aiddir.

Cinayət və mülki işlərin əksər hissəsinə ştat məhkəmələri tərəfindən baxılır və onların nisbətən az hissəsi (5-10 %) federal məhkəmə araşdırmasının predmeti kimi çıxış edir. Federal məhkəmə sisteminə ABŞ-ın Ali Məhkəməsi, apellyasiya və dairə məhkəmələri, eləcə də xüsusi məhkəmələr daxildir. Federal məhkəmələr sisteminə ABŞ Ali Məhkəməsi rəhbərlik edir, o, həm də ABŞ Konqresi və Prezidenti ilə yanaşı yüksək dövlət idarələri strukturunda müstəsna əhəmiyyətli yer tutur. ABŞ Ali Məhkəməsi – ABŞ Konstitusiyasında təsbit olunmuş yeganə məhkəmə idarəsidir, doqquz hakimdən ibarətdir və onlardan biri ABŞ Prezidenti tərəfindən Məhkəmənin sədri təyin edilir (7,s.9). Sədr də daxil olmaqla Ali Məhkəmənin üzvləri prezident tərəfindən təyin olunur və Senat tərəfindən təsdiq edilir. Qərar qəbulu üçün zəruri olan kvorum məhkəmənin 6 üzvünün iştirakını tələb edir. Ali Məhkəmə birinci instansiya məhkəməsi kimi iki və ya daha çox ştat arasında olan mübahisələrə, tərəflərindən biri xarici dövlətin səfirləri olan iddialara və bir sıra digər (təcrübədə belə işlərin sayı çox deyil) işlərə baxır. Onun əsas funksiyası – aşağı federal məhkəmələrin və ştatlar məhkəmələrinin qərarlarından verilmiş şikayətlərə (əgər onlarda “federal məsələ”yə toxunulubsa), eləcə də hər hansı ştatın qanununun və ya ABŞ Konqresinin aktının ABŞ Konstitusiyasına zidd olmasına dair hər hansı məhkəmə qərarının ləğv olunması barədə müraciətlərə baxmaqdan ibarətdir. ABŞ Ali Məhkəməsi apellyasiya məhkəməsinin müraciəti ilə mülki və ya cinayət işi üzrə hüquq məsələsini aydınlaşdıra və ona dair məcburi təfsir verə bilər. Hər bir hakim öz fikrini bildirir, sonra onlardan biri əksəriyyətin mövqeyini, yəni məhkəmənin qərarını formulə edir, qalanları isə ya onunla tam razılaşır, ya nəticə hissəsi ilə razılaşır, lakin qərarın əsaslandırılma şəkli ilə razılaşmır və yaxud əksəriyyətin mövqeyinə əks olan öz mövqeyini bildirir (hakimlərin bütün mövqeləri çap olunur).

Apellyasiya məhkəmələri 1891-ci ildə ABŞ Ali Məhkəməsi və dairə məhkəmələri arasında aralıq instansiyası məhkəmələri kimi yaradılmışdır. Hazırda 13 apellyasiya məhkəməsi mövcuddur: biri

Kolumbiya federal dairəsində, on biri 3-dən 10-dək ştatı əhatə edən və özünün rəsmi nömrəsi olan apellyasiya dairələrindən hər birində və nəhayət, gömrük və patent işləri üzrə şikayətlərə və Pretenziya məhkəməsinin qərarlarından verilmiş şikayətlərə baxan və 1982-ci ildə yaradılmış federal yurisdiksiyalı Apellyasiya Məhkəməsi. Hər bir apellyasiya məhkəməsinin tərkibinə 4-dən 23-dək hakim daxildir. Hər bir apellyasiya məhkəməsinin işində ABŞ Ali Məhkəməsinin üzvlərindən biri iştirak edir. İlk 12 apellyasiya məhkəməsi dairə məhkəmələrinin hökmlərindən və qərarlarından, bir sıra inzibati orqanların hüquq normalarının pozulmasını nəzərdə tutan qərarlarından verilmiş şikayətlərə baxır, eləcə də bəzi məsələlər üzrə birinci instansiya məhkəməsi qismində əmrlər verir.

Dairə məhkəmələri (bəzən onları "rayon məhkəmələri" də adlandırırlar) – federal məhkəmə sisteminin əsas həlqəsidir. Ölkənin bütün ərazisi ştatlar arasındakı sərhədlər nəzərə alınmaqla dairələrə bölünmüşdür və ştatlarda 1-dən 4-ə qədər dairələr mövcuddur. Müvafiq dairə məhkəmələri ABŞ-ın 4 xarici ərazilərində də yaradılmışdır. Hazırda hər birində 2-dən 27-dək hakim olan 95 dairə məhkəməsi mövcuddur. Onlar federal ədliyyənin yurisdiksiyasına daxil olan mülki və cinayət işlərinə, eləcə də inzibati idarələrin hərəkətlərindən verilmiş şikayətlərə birinci instansiya məhkəməsi qismində baxır. Cinayət işlərinə və iddianın məbləği 20 dollardan çox olan mülki işlərə, əgər təqsirləndirilən şəxs və ya iddiaçı bunu tələb edirsə, andlı iclasçıların iştirakı ilə baxılır. Dairə məhkəmələri yanında federal magistratlar fəaliyyət göstərir (bu vəzifə 1968-ci ildə yaradılmışdır). Onlar əsasən, işin məhkəmə baxışına hazırlanması və məhkəmə qərarlarının icrasına nəzarətlə məşğul olurlar (12, 261).

Ümumi məhkəmə sistemi ilə yanaşı bir neçə ixtisaslaşdırılmış federal məhkəmələr mövcuddur. Onların sistemi 1982-ci ildə əsaslı şəkildə yenidən təşkil olunmuşdur. Burada əsas yeri Pretenziya Məhkəməsi tutur. O, fiziki şəxslərin və korporasiyaların ABŞ hökumətinə qarşı iddia məbləği 10.000 dollardan çox olan və müqavilələrin pozulması nəticəsində və ya digər əsaslara görə vurulmuş zərərin ödənilməsi tələbi ilə bağlı mülki işlərə baxır. O, 9 hakimdən ibarətdir, yekdilliklə qərar qəbul edir, ya qərargahı yerləşən Nyu-York şəhərində, ya da zərurət olduqda, ABŞ-ın digər liman şəhərlərindən birində iclas keçirir. ABŞ-da ixtisaslaşdırılmış məhkəmə kimi fəaliyyət göstərən Vergi məhkəməsi federal vergilərin miqdarı və onların ödənilməsi ilə bağlı ortaya çıxan mübahisələrə baxır.

Ştat məhkəmələrində hakim vəzifələrinə təyin olunma kifayət qədər müxtəlif yollarla həyata keçirilir. Ali məhkəmə və apellyasiya məhkəmələrinin hakimləri vəzifəyə qubernator tərəfindən Senatın və ya ştatın qanunverici orqanının razılığı ilə təkrar təyin olunma hüququ saxlanılmaqla, 6-15 il müddətinə təyin olunur. Bəzi ştatlarda birinci instansiya məhkəməsinin hakimləri də bu qaydada təyin edilirlər. Lakin ştatlarda əksər hakimlər əhali tərəfindən seçki kompaniyasının gedişində seçilirlər.

ABŞ-da cinayət təqibinin başlanılması və işin məhkəməyə verilməsi üzrə faəliyyəti attorneylər həyata keçirirlər. Onların əsas funksiyası məhkəmədə ittihamın müdafiəsidir. Attorneylər birinci instansiya məhkəməsinin hökmlərindən yuxarı instansiya məhkəməsinə şikayət vermək hüququna malikdir. Federal attorneylər ABŞ prezidenti tərəfindən Senatın razılığı ilə təyin olunurlar.

Təqsirləndirilən şəxslərin hüquqlarının müdafiəsi və mülki işlərdə tərəflərin maraqlarının müdafisəi vəkillər tərəfindən həyata keçirilir. ABŞ-da vəkillərin səlahiyyətlərinə görə bölgüsü aparılmır, lakin müəyyən sahələr üzrə ixtisaslaşma istisna edilmir. Vəkillik fəaliyyətinə başlamaq üçün əksər ştatlarda məhkəmələr tərəfindən təşkil olunan imtahanlardan uğurla keçmək tələb edilir. Əksər ştatlarda (amma heç də hamısında deyil) imtahanda iştirak etmək üçün ali hüquq təhsili haqqında diplomun olması tələb edilir. Digər ştatın məhkəməsində iştirak etmək üçün vəkil ya yeni imtahan verməli, ya da müvafiq razılıq almalıdır. Amerika vəkilləri ya vəkillər kontorunun tərkibində, ya da müstəqil şəkildə fəaliyyət göstərirlər. Vəkillər, korporasiyalarda fəaliyyət göstərən hüquqşünaslar və dövlət attorneyləri ştat hüquqşünasları assosiasiyasında birləşirlər. Bütün ölkə miqyasında bu birliklərin fəaliyyəti Amerika Hüquqşünaslar Assosiasiyası tərəfindən əlaqələndirilir və istiqamətləndirilir. Onun təxminən 400.000 üzvü var və kifayət qədər nüfuzlu siyasi qüvvəyə malikdir (4, 421).

**ABŞ-da ştatların məhkəmə sistemi.** Amerika ştatlarında bir-birindən kifayət qədər fərqlənən məhkəmə sistemi mövcuddur. Bu, daha çox, konkret ştatda məhkəmə sisteminin formalaşmasının tarixi şəraiti ilə izah edilir. Yeni yaranmış ştatlar məhkəmə təşkilinin sxemini qonşu ştatlardan mənimsəmişlər. Ştatlarda daha çox, iki və üç pilləli ümumi məhkəmələr sistemi, eləcə də, məhdud və ya xüsusi yurisdiksiyalı müxtəlif məhkəmələr fəaliyyət göstərir. Ümumi məhkəmələrin iki pilləli sistemi birinci instansiya məhkəmələrini və yüksək məhkəmə instansiyasını ehtiva edir, ölçüsünə görə elə də böyük olmayan və əhalisi az olan ştatlar üçün xarakterikdir. Daha böyük ştatlarda çox sayda cinayət və mülki işlərə baxan apellyasiya yurisdiksiyası məhkəmələri olan üç pilləli məhkəmə sistemi fəaliyyət göstərir.

Ştatda məhkəmə sisteminə rəhbərlik edən məhkəmələr çox vaxt ali məhkəmə adlandırılır, lakin bir sıra ştatlarda onlara apellyasiya məhkəməsi də deyilir. Onlar 5-dən 9-dək hakimdən ibarətdir, onlardan biri məhkəmənin sədri təyin edilir. Ali və ştatların onlara müvafiq olan məhkəmələri əsasən aşağı instansiya məhkəmələrinin qərarlarından verilmiş şikayətlərə baxırlar. Əksər ştatlarda onlar yalnız hüquqi məsələyə toxunmuş məhkəmə qərarlarından verilmiş şikayətlərə, digərlərində isə həm də fakt üzrə olan şikayətlərə baxırlar.

Birinci instansiya məhkəməsi qismində bu məhkəmələr onlara birbaşa müraciət halında (məsələn, qanunsuz həbsə alma barədə şikayət halında – "habeas korpus" əmri) məhkəmə əmri verirlər, bəzi hallarda əmrin verilməsi ilə bağlı işi öz icraatlarına qəbul edirlər, bu şərtlə ki, həmin işlər xüsusilə mürəkkəb olsun. Məhkəmə işlərinə və ya inzibati orqanların qərarlarından verilmiş şikayətlərə baxılan zaman ştat konstitusiya və qanunlarının təfsirində ştatların ali məhkəmələrinin rolu xüsusilə böyükdür. Bu funksiyanın əhəmiyyəti son onillikdə daha da artmışdır, çünki ayrı-ayrı ştatlarda ali məhkəmələr insan hüquqlarının müdafiəsi ilə bağlı ABŞ Ali Məhkəməsinə nisbətən daha qəti mövqe ortaya qoymuşlar.

Apellyasiya instansiya məhkəmələri bir sıra ştatlarda birinci instansiya məhkəmələrinin və digər məhkəmələrin hökm və qərarlarından verilmiş şikayətlərə baxmaq üçün yaradılmışdır. Bəzən ştatda ayrıca cinayət apellyasiya məhkəməsi yaradılır. Apellyasiya məhkəmələrinin tərkibinə 10-dan 50-dək hakim daxildir. İşlərə adətən 3 hakimdən ibarət tərkibdə baxılır. Bəzi ştatlarda apellyasiya məhkəmələri müəyyən

kateqoriya cinayət və mülki işlərə, o cümlədən andlı iclaçıların iştiraki ilə keçirilən işlərə birinci instansiya məhkəməsi qismində baxırlar. Bu halda hakim prosesi tək başına aparır. Ştatların məhkəmə sisteminin əsas həlqəsi – ümumi yurisdiksiya məhkəmələridir və onlar müxtəlif şəkildə adlandırılırlar. Məsələn, Nyu-York ştatında ali məhkəmələr, Kaliforniya ştatında yüksək məhkəmələr, lakin onlar daha çox dairə məhkəmələri adlandırılırlar. Dairə məhkəmələrində işlərə hakimlər tərəfindən ya tək başına, yaxud andlı iclasçıların iştiraki ilə baxılır. Əksər ştatlarda təqsirləndirilən şəxsin günahkar sayılması üçün andlı iclasçıların bu barədə yekdilliklə verdikt qəbul etməsi tələb olunur. Təqsirləndirilən şəxsə cəza təyin edilməsi bir qayda olaraq, məhkəmənin səlahiyyətinə aid edilir, lakin bəzi ştatlarda andlı iclasçılar öz verdiktləri ilə həm də cəza məsələsini həll edirlər. Ümumi məhkəmə sisteminin adı çəkilən həlqələrindən başqa hər bir ştatda məhdud yurisdiksiyalı məhkəmələr də fəaliyyət göstərir. Onlara cərimə, yaxud qısa müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılan cinaəyət işlərinə, iddia məbləği 1.000 dollardan az olan mülki işlərə baxırlar. Belə məhkəmələr müxtəlif cür adlandırılırlar: bələdiyyə, şəhər, polis məhkəmələri, bəzən qraflıq məhkəmələri, ümumi sessiya məhkəmələri və s. İşlərə hüquqi savadı olması məcburi olmayan magistratlar və ya barışdırıcı hakimlər tərəfindən baxılır. Əksər ştatlarda ya müstəqil, ya da dairə məhkəmələri yanında fəaliyyət göstərən xüsusi yurisdiksiyalı məhkəmələr mövcuddur. Bunlara vergi işləri, torpaq mübahisələri, vərəsəlik işləri, ştat hakimiyyət orqanlarına qarşı pretenziyalar üzrə məhkəmələr, yol hərəkəti qaydalarının pozulması ilə bağlı böyük ölçüdə işlərə baxan məhkəmələr və s. aiddir. Onların içində yetkinlik yaşına çatmayanların işləri üzrə məhkəmələr xüsusi yer tutur və çox vaxt özündə ailə məhkəmələrinin funksiyalarını birləşdirir. Onlar yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayət işlərinə baxır, uşaqlarının qayğısına qalmayan valideynlər barəsində sanksiya tətbiq edir, ailə münaqişələrini həll etməyə çalışır və s.

Ştatların ali məhkəmələri ştatların konstitusiya və qanunlarının təfsiri ilə bağlı işlərə ən fəal şəkildə baxırlar. Ştatlarda ümumi yurisdiksiya məhkəmələri konstitusiya nəzarəti orqanı və inzibati ədliyyə kimi çıxış edir, çünki onlar qanunların düzgün tətbiq edilməməsinə görə inzibati orqanlar və vəzifəli şəxslərin hərəkətlərindən verilmiş şikayətlərə baxır.

**Ali Məhkəmə və məhkəmə sistemi**. ABŞ Konstitusiyasının 3-cü maddəsində göstərilir: "Məhkəmə hakimiyyəti Amerika Birləşmiş Ştatlarında Ali Məhkəmə və zaman-zaman Konqres tərəfindən yaradılacaq aşağı məhkəmələr tərəfindən həyata keçirilir" (1-ci bölmə. 6, 43).

Ali Məhkəmənin hakimləri və digər federal hakimlər ABŞ prezidenti tərəfindən təyin edilir (Senatın məsləhəti və razılığı ilə), "özlərini qüsursuz apardıqları müddətdə" vəzifədə qalır və onların məvacibləri "onlar vəzifədə olduqları müddətdə" azaldıla bilməz (3-cü maddə, 1-ci bölmə).

Göstərilən konstitusion müddəalar hakimlərin müstəqilliyinin təmininə xidmət edir. Ali Məhkəmənin hakimləri və digər federal hakimlər yalnız impiçment qaydasında vəzifədən azad edilə bilərlər

ABŞ-da məhkəmə nəzarətinin məzmunu məhkəmələrin aşağıdakı səlahiyyətlərini əhatə edir: konstitusiyanın məcburi təfsiri, Konqresin və ştat legistraturalarının qanunlarının, icra hakimiyyəti orqanlarının

normativ-hüquqi aktlarının konstitusiyaya uyğunluğunun yoxlanılması, eləcə də məhkəmə presedentləri formasında hüquq normalarının yaradılması. ABŞ Ali Məhkəməsi 1787-ci il Konstitusiyasını təfsir edərək və öz mülahizəsinə görə tamamlayaraq ölkənin faktiki əsas qanununda yeni müddəalar yaradır. Keçmiş baş hakim Ç.Hyuzun müdrik sözləri: «Konstitusiya – onun haqqında hakimlərin dedikləridir» – ABŞ Ali Məhkəməsinin əsrlik təcrübəsi ilə təsdiq olunur.

ABŞ-da konstitusiya nəzarətinin xüsusiyyətlərinə aiddir: birincisi, qanunun və ya digər aktın konstitusiyaya zidd olması məsələsi yalnız həmin normativ-hüquqi aktlar çap edildikdən və qüvvəyə mindikdən sonra ortaya çıxır. İkincisi, Ali məhkəmə aktın konstitusiyaya zidd olması məsələsini ümumilikdə, ayrıca icraatda deyil, hər hansı məhkəmə işinə baxarkən həll edir, beləliklə də, «qanunun taleyini iş əsasında» həll edir. Üçüncüsü, aktın konstitusiyaya zidd olduğu halda, o, hüquqi qüvvəsini itirir. ABŞ-da konstitusiya nəzarəti "hüququn aliliyi" prinsipindən doğmuşdur və ölkənin dövlət orqanları mexanizmində "çəkindirmə və tarazlaşdırma" sisteminin reallaşdırılmasına xidmət edir.

**Məhkəmə hakimiyyəti.** ABŞ-da məhkəmə quruluşunun xarakterik cəhəti vahid, ümummilli məhkəmə sisteminin mövcud olmamasından ibarətdir: hər bir ştatın məhkəmə sistemi ilə paralel olaraq federal məhkəmə sistemi fəaliyyət göstərir.

Konstitusiyanın 3-cü maddəsinə əsasən ABŞ-da məhkəmə hakimiyyəti ABŞ Ali Məhkəməsinə və konqres tərəfindən təsis edilmiş aşağı federal məhkəmələrə məxsusdur.

**Federal səviyyədə məhkəmə quruluşu.** Federal məhkəmə sistemi 4 qrup məhkəmələrdən ibarətdir: dairə, xüsusi, apellyasiya və xüsusi apellyasiya – Ali Məhkəmə başda olmaqla.

ABŞ dairə məhkəmələri – ümumi yurisdiksiyalı federal məhkəmələrdir; onlar federal qanunvericiliyə əsaslanan bütün işlərə birinci instansiya məhkəməsi qismində baxırlar. Xüsusi birinci instansiya məhkəmələri – ABŞ pretenziya məhkəməsi (vətəndaşların ABŞ hökümətinə qarşı olan pul-əmlak tələblərinə baxır) və xarici ticarət işləri üzrə ABŞ məhkəməsidir (idxal ticarət əməliyyatları haqqında federal qanunlar və gömrük qaydaları əsasında yaranmış mübahisələrə baxır).

Xüsusi apellyasiya məhkəmələrinə federal dairə üzrə ABŞ məhkəməsi (pretenziya məhkəməsinin, xarici ticarət işləri üzrə məhkəmənin və bir neçə federal inzibati orqanların qərarlarından verilmiş şikayətlərə baxır) və müvəqqəti fövqəladə apellyasiya məhkəməsi daxildir; hər iki məhkəmənin qərarından Ali Məhkəməyə şikayət verilir.

Apellyasiya məhkəmələri federal birinci instansiya məhkəmələri ilə Ali Məhkəmə arasında apellyasiya instansiyası olaraq aralıq mövqe tutur. Federal məhkəmə sisteminə federal məhkəmə iyerarxiyasında ən yüksək orqan olan və son apellyasiya instansiyası kimi çıxış edən ABŞ Ali Məhkəməsi rəhbərlik edir.

ABŞ-da müstəqil hərbi məhkəmələr sistemi fəaliyyət göstərir. Hərbi cinayətlərə, eləcə də hərbi qulluqçular tərəfindən həqiqi hərbi qulluq müddətində və yalnız hərbi vəzifələrin icrası zamanı törədilmiş digər cinayətlərə baxılıb həll olunması hərbi məhkəmələrin aidiyyətinə daxildir.

**Ştatlarda məhkəmə quruluşu.** Hər bir ştat öz sərhədləri daxilində

zəruri hesab etdiyi məhкəmə orqanı yarada bilər, laкin məhкəmə quruluşunun bütün ştatlar üçün xaraкteriк olan cəhətləri mövcuddur. Belə кi, ştatlarda 3 qrup məhкəmələr fəaliyyət göstərir: məhdud və xüsusi yurisdiкsiya, ümumi yurisdiкsiya, apellyasiya yurisdiкsiyası. İlк iкi qrup – işlərə mahiyyəti üzrə baxan yerli birinci instansiya məhкəmələridir. Üçüncü qrup apellyasiya məhкəmələrini və ştatların ali məhкəmələrini əhatə edir (3, 78).

**ABŞ-da andlılar məhкəmələri.** İstənilən ABŞ vətəndaşı və hətta əcnəbi Nyu-Yorк sürücülərinin şəhər nəqliyyat idarəsində saxlanılan qeydiyyat siyahılarından onun adının кompüter tərəfindən sərbəst şəкildə seçilməsi haqqında bildiriş ala bilər. Həmin bildirişdə vətəndaş vəzifəsinin icrası təкlif edilir: yenicə seçilmiş məhкəmənin səlahiyyət müddətində andlı iclasçı кimi çıxış etməк üçün namizədliyini irəli sürməк. Onlara elə də böyüк olmayan, laкin кifayət qədər ətraflı anкet əlavə edilir. Ümumi məlumatlar кimi şəxsin məhкum olunub-olunamaması, uşaqlarının sayı, ABŞ-ın vətəndaşı olub-olmaması çıxış edir. Hərbi qulluqçular, bütün səviyyələrdə (federal səviyyədən кənd səviyyəsinə кimi) seçкili vəzifəli şəxslər, icra orqanlarının bütün rütbəli şəxsləri andlı iclasçı ola bilməzlər. Eyni zamanda, andlı iclasçı olmaqdan imtina etməyə əsas verən ixtisasların siyahısı müəyyənləşdirilmişdir: ruhanilər, vəкillər, polislər, yaşı 70-dən artıq olan vətəndaşlar, yanğınsöndürənlər və 16 yaşına çatmamış uşağı olan analar.

Anкetə cavab verməк bütün vətəndaşların borcudur, əкs halda o, məhкəməyə hörmətsizliк etdiyinə görə cinayət məsuliyyətinə cəlb edilə bilər. Andlılar məhкəməsi ideyası Ameriкaya məxsus deyil. Bu ideya orta əsrdə İngiltərədə yaranmış və sonradan əкsər ölкələrə yayılmışdır. ABŞ-da andlılar məhкəməsinin iкi növü fəaliyyət göstərir: böyüк və кiçiк jüri. Böyüк jüri 23 nəfərdən ibarətdir və şəxsin məhкəməyə cəlb edilməsi üçün əsasların кifayət edib-etməməsini yoxlayır (bir qayda olaraq, dövlət cinayətlər кateqoriyası üzrə). İкinci jürinin vəzifəsi təqsirləndirilən şəxsin təqsirinin olub-olmamasını artıq məhкəmə iclasının gedişində müəyyənləşdirməкdən ibarətdir. Cəzanın конкret həddini isə haкim ayrıca məhкəmə iclasının gedişində müəyyənləşdirir. Andlı iclasçılara məhкəmə prosesi müddətində mətbuatla ünsiyyət qurmaq qadağandır.

Andlılar məhкəməsinin ABŞ məhкəmə sisteminə təsiri necədir? Andlılar məhкəməsi təqsirləndirilən şəxsin təqsirinin müəyyən edilməsində səhvlərə yol verilməsi ehtimalının кifayət qədər azaldılmasına кöməк edir, laкin bununla belə yanlışlıqların olması istisna edilmir. Andlılar məhкəməsi məhкəmə prosesinin xaraкterini əla surətdə dəyişir, onun çəкişmə cəhətini gücləndirir və mahiyyətcə ittiham və müdafiə tərəfləri arasında yarışa çevirir. Andlılar məhкəməsi məhкəmənin demoкratiкliyinin əlamətidir, məhкəmə özbaşınalığına, istintaq materiallarının qəsdən təhrif edilməsinə qarşı bir təminatdır.

## ƏDƏBIYYAT


1. Məliкova M.F., Nəbiyev E.Q. Müasir dövlət və hüquq tarixi. Baкı: Elm və həyat, 2003, 636 s.
2. Боботов С.В., Жигачев И.Ю. Введение в правовую систему США. М.: Наука, 1997, 432 с.
3. Бернам У. Правовая система Соединенных Штатов Америки. М.: Наука, 2006, 101 с.
4. Гуценко К.Ф. Основы уголовного процесса США. М.: Наука, 2004, 536 с.
5. Гуценко К.Ф. Уголовная юстиция США. М.: Питер, 1999, 503 с.
6. Жидков О. А. Верховный суд США: Право и политика. М.: Наука, 1995, 66 с.

7. Черниловский З.М. От Маршалла до Уоррена: Очерки истории Верховного суда США. М.: Наука, 1992, 15 с.
8. Ковалев В.А., Чаадаев С.Г. Органы расследования и судебная система США. М.: Прогресс, 1999, 201 с.
9. Николайчук В.М. Уголовное правосудие в США // США: Экономика. Политика. Идеология. 1995. № 2, 92; с. 60-68.
10. Рябошапко Е.С. Обзор судебной системы США: Службы, исполняющие решения судов //Российский судья, 2003. №5, 39 с.
11. Стойко Н.Г., Никитин Г.А. Уголовный процесс в США: Защита личных прав и свобод: Учебное пособие. СПб.: Изд-во Юридического института, 2006, 131 с.
12. Шумилов В.М. Правовая система США: Учебное пособие. 2-е изд., перераб. и доп. М.: Прогресс, 2006, 408 с.

## СУДЕБНАЯ СИСТЕМА США

**Р.С.КАЗЫМОВ**

### РЕЗЮМЕ

В настоящей статье дается характеристика судебной системы США. В статье говорится о единой федеральной системе судов и самостоятельных судебных системах, раскрывается компетенция каждого из судов. Так, в федеральную систему судов входят Верховный суд США, апелляционные и окружные суды, а также специальные суды.

Здесь говорится о правилах назначения на судейские должности в штатах. Так, судьи верховных судов и апелляционных инстанций в большинстве штатов назначаются губернаторами с согласия Сената либо иного законодательного органа штата. В таком же порядке в некоторых американских штатах занимают свои должности и судьи нижестоящих судебных инстанций. Однако большинство судей в штатах выбираются населением в ходе избирательных кампаний.

Говоря о судебных системах штатов, следует отметить, что чаще всего в штатах используются двух- и трехступенчатая системы общих судов, а также различные суды ограниченной или специальной юрисдикции. Основное звено судебной системы штатов суды общей юрисдикции, которые выступают под самыми разными названиями, например: в штате Нью-Йорк это верховные суды, в штате Калифорния высшие суды, но чаще всего они именуются окружными судами. Дела в окружных судах рассматриваются либо единоличными судьями, либо судьями с участием присяжных заседателей. В настоящее время количество присяжных заседателей в американских судах любых инстанций, в том числе и в федеральной системе судов, составляет при разбирательстве уголовных дел 12 или меньше, но не менее шести присяжных, при разбирательстве гражданских дел чаще всего шесть, если стороны не потребуют увеличения числа присяжных.

Помимо названных звеньев общей системы судов в каждом американском штате имеются суды ограниченной юрисдикции, которым доверяется рассматривать дела о малозначительных преступлениях, наказываемых штрафами либо, как правило, лишь краткосрочным лишением свободы, а также гражданские дела с небольшой суммой иска, чаще всего до 1000 долларов. Они носят названия муниципальных городских, полицейских судов, иногда судов графств, судов общих сессий и т.п.

Во многих штатах действуют также суды специальной юрисдикции либо самостоятельно, либо при окружных судах. Это суды по налогам, по земельным спорам, по делам о наследовании, по претензиям к властям штатов, суды, разбирающие огромное количество дел о нарушении правил дорожного движения, и др. Суды общей юрисдикции в штатах выступают в роли органов конституционного контроля и

административной юстиции, поскольку они нередко принимают к своему рассмотрению жалобы на действия административных учреждений и должностных лиц по мотивам неправильного применения теми законов.

## THE JUDICIAL SYSTEM OF THE USA

**R.S.KAZIMOV**

**SUMMARY**

This article describes the U.S. court system. The article refers to a single federal court system and independent judicial systems, expands the competence of each of the vessels. Thus, the federal court system includes the Supreme Court, appellate and district courts, as well as special courts.

It refers to the rules of judicial appointments in the States. Thus, the judges of supreme courts and appellate courts in most states, are appointed by governors with the consent of the Senate or other legislative body of the state. In some U.S. states the judges of subordinate courts hold office the same way. However, the majority of judges in the States are elected by the people during election campaigns.

Speaking about the judicial systems of the States, it should be noted that most states use the two or threefold system of ordinary courts, as well as the various courts of limited or special jurisdiction. The main part of the judicial system, state courts of general jurisdiction, appear under a variety of names, for example: supreme courts in New York State, the California supreme courts, but most often they are referred to district courts. The cases in the district courts are considered by a sole judge or judges, with the participation of jurors. Currently, the number of jurors in U.S. courts of all instances, including in the federal court system, is in criminal proceedings 12 or less but not less than six jurors, whereas in the trial of civil cases only six, if the parties do not require an increase in the number of jury.

In addition to the above links in the overall system of courts in each American state, there are courts of limited jurisdiction, who are trusted to deal with cases of petty crimes that are punishable by a fine or, as a rule, only a short-term imprisonment, as well as civil cases with a small amount of the claim, often up to 1000 dollars. They bear the names of the municipal urban police courts, sometimes courts, courts of general sessions, etc.

In many states there are also courts of special jurisdiction, either independent or within the district courts. That is the courts for taxes, the land dispute, in cases of inheritance, for the claims to state authorities, courts, dealing with a huge number of cases of violation of traffic rules, etc. The courts of general jurisdiction in the states process in the role of constitutional control and administration of justice, because they often take their complaints to the actions of administrative agencies and officials on grounds of improper application of those laws.